## «195»ə zəng edənlərin sayı artır

2012-ci ilin mart ayı ərzində Vergilər Nazirliyinin Telefon-məlumat xidmətində vergi ödəyiciləri və ümumilikdə əhalidən daxil olmuş 20.496, o cümlədən müfəttiş-operatorlar tərəfindən canlı rejimdə 9490 müraciət cavablandırılmış, 7.231 vergi ödəyicisi mesaj göndərilməklə məlumatlandırılmışdır. 2011-ci ilin mart ayı ilə müqayisədə canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılan müraciətlərin sayı 14,5% artmış, avtomatik rejimdə elektron operator tərəfindən cavablandırılan müraciətlərin sayı isə əksinə, 15,1% azalmışdır.

Hesabat dövründə vergi ödəyiciləri daha çox elektron xidmətlər (25,4%), vergi növləri (17,5%), qeydiyyat (17,1%), hesabatlar və onların doldurulma qaydaları (13,4%), büdcə və vergi orqanının rekvizitləri (10,3%) ilə maraqlanmışlar. Avtomatik rejimdə cavablandırılmış suallar arasında isə vergi növləri və dövlət büdcəsinə olan vergi borcları barədə suallar üstünlük təşkil etmişdir.

Vergi ödəyicilərindən daxil olan sualların 98,7%-nə müfəttiş-operatorlar dərhal, 1,3%-nə isə sual vərəqəsi tərtib edilərək araşdırıldıqdan sonra cavab vermişlər. Sualların 86,7%-i Bakı şəhərindən, 9,3%-i mobil operatorlardan, qalanları isə ölkənin müxtəlif bölgələrindən daxil olmuşdur.

Hesabat dövründə əhalidən şikayət (ərizə) və məlumat xarakterli 34 müraciət qəbul edilərək baxılması üçün aidiyyəti üzrə göndərilmişdir.